AZƏRBAYCAN XƏBƏRLƏRİ

Gələn ilin büdcəsindən 2 milyard manatdan çox pul borclara gedəcək

AzadlıqRadiosu ©

Noyabr 04, 2026

Hazırda adambaşına düşən xarici borc: 1114 manat. Azərbaycan necə borclanıb və pul nəyə xərclənib? İzah edirik (Arxiv videosu)

Gələn il dövlət borcuna xidmət xərclərinin 2.2 milyard manat olacağı gözlənilir ki, bu da ümumi büdcə xərclərinin 5.2 faizini təşkil edir.

Bu rəqəm "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb.

Noyabrın 4-də parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında layihənin təqdimatı keçirilib.

Rəsmi qurumlar bu rəqəmin dünyadakı orta göstəricidən xeyli yaxşı olduğunu bildirirlər.

Layihəyə əsasən, **daxili borcun ödənilməsi üçün 772 milyon manat, xarici borc üçün isə 1 milyard 427 milyon manat vəsait nəzərdə tutulur.**

Borcların qaytarılmasına ayrılan bu pul İcbari Tibbi Sığorta Fonduna ayrılan vəsaitdən düz iki dəfə çoxdur. Belə ki, büdcə layihəsində fond üçün cəmi 1 milyard 100 milyon manat ayrılıb.

Qanun layihəsində 2027-ci il dövlət büdcəsinin gəlirləri 39 milyard 254 milyon manat, xərcləri isə 42 milyard 400 milyon manat həcmində planlaşdırılır.

Lakin müstəqil iqtisadçılar rəsmilərlə eyni fikirdə deyillər və borclara bu qədər böyük vəsaitin ayrılmasını ölkə vətəndaşları üçün müsbət hal hesab etmirlər. Onlar vurğulayırlar ki, Azərbaycanın xarici dövlət borcunun 3 milyard 52 milyon 700 min dolları, yəni təxminən 67.7 faizi məhz qarşıdakı 5 il ərzində ödənilməlidir.

Maliyyə Nazirliyinin açıqlamasına görə, bu ilin ilk doqquz ayında ölkənin ümumi dövlət borcu təxminən 2 milyard manat (8 faiz) azalaraq 23.8 milyard manata düşüb. Bunun üçdə biri — 7.6 milyard manatı (4.5 milyard dolları) xarici borcun payına düşür.

Bu il oktyabrın 1-nə olan məlumata görə, ölkənin strateji valyuta ehtiyatları 89.4 milyard ABŞ dolları həcmindədir.

AzadlıqRadiosu ©

*- **MÜTLƏQ** hiperlinklə istinad verilməlidir.*
- İcazə olmadan fotolarımızı təkrar dərc etməyin.
İstifadə şərtləri haqda ətraflı burada

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur